

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 125 (21.786)

*6 iyul 2017-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Dövlət Baytarlıq Xidmətində səyyar müşavirə keçirilib



İyulun 5-də Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində 2016-2017-ci illərdə baytarlıq xidməti sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı səyyar müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Muxtar respublikada kənd təsərrüfatının, eləcə də onun aparıcı sahələrindən olan heyvandarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Son illər heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz təsirini göstərmişdir. 2000-ci illə müqayisədə 2017-ci ilin ötən dövründə muxtar respublikada iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların sayı 2 dəfəyədək artmışdır. Bu hesaba daxili bazarda heyvan mənşəli ərzaq məhsullarının istehsal həcmində artım əldə olunmuşdur.

Qeyd olunmuşdur ki, keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları istehsalına nail olunması müasir dövrdə qarşıda duran əsas vəzifələrdəndir. Çünki sağlam qida sağlam insan deməkdir. Ona görə də insanların sağlamlıqlarının qorunması tədbirlərinə ilk növbədə baytarlıq xidmətində fəaliyyəti səmərəli təşkil etməklə başlamaq lazım idi. Bu amil nəzərə alınaraq muxtar respublikada baytarlıq təbabəti dövrün tələblərinə uyğun qurulmuş, müasir infrastruktur yaradılmış, maddi-texniki baza möhkəmləndirilmişdir. Yerlərdə xidmətin fəaliyyətini gücləndirmək və nəzarət tədbirlərini yaxşılaşdırmaq məqsədilə istifadəyə verilən hər bir kənd mərkəzində baytarlıq məntəqələri üçün lazımi avadanlıqlarla təchiz olunmuş iş yerləri ayrılmışdır. Muxtar respublikada baytarlıq təbabəti üzrə ixtisaslı kadrların hazırlanmasına da diqqət artırılmışdır. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Heyvandarlığın inkişafında müsbət dinamikanın qorunub saxlanması, məhsuldarlığın artırılması və müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirlərinin vaxtında aparılması üçün Baytarlıq Xidməti fəaliyyətini daha da gücləndirməlidir. Xidmət yaradılmış şəraitdən düzgün istifadə edərək epizootik sabitliyi qoruyub saxlamalı, heyvanlar arasında peyvəndləmə, diaqnostik müayinə və digər tədbirlərin səmərəli təşkilinə nail olmalı, istifadə olunan dərmanların keyfiyyətinə və saxlanılma şəraitinə ciddi nəzarət edilməlidir. Naxçıvan şəhərində və rayon mərkəzlərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması davam etdirilməlidir.

Müşavirədə vurğulanmışdır ki, heyvandarlığın inkişafında intensiv metodlara daha çox üstünlük verilməlidir. Mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, təbii yolla keçən xəstəliklərin qarşısının alınması məqsədilə süni mayalanma tədbirlərinin əhatə dairəsi və əhali arasında maarifləndirmə işləri genişləndirilməlidir. Süni mayalanma işinin səmərəliliyini artırmaq üçün keyfiyyətli toxum bankı yaradılmalı, bu sahə üzrə mütəxəssislərin peşəkarlıq səviyyəsi yüksəldilməlidir. Məhsuldarlığı daha da artırmaq, heyvanlara zootexniki qaydalara uyğun qulluq göstərilməsini, eləcə də daim baytar nəzarəti altında olmasını təşkil etmək məqsədilə müasir standartlara uyğun özəl iri damazlıq təsərrüfatlarının yaradılması bundan sonra da diqqətdə saxlanmalıdır.

Ali Məclisin Sədri demişdir: Sərhəd yaşayış məntəqələrində dezinfeksiya işlərinin aparılmasına, epizootik vəziyyətin təhlilinə nəzarət gücləndirilməli, aşkar olunan xəstəliklərə qarşı operativ tədbirlər görülməlidir. Baytarlıq Xidməti mütəmadi olaraq heyvanların yaylaqda saxlanma şəraiti ilə maraqlanmalı, mövsümə uyğun peyvəndləmə tədbirlərinin aparılmasını təmin etməlidir. Yerli arı genofondunun mühafizəsi, arı xəstəliklərinin qarşısının alınması üçün qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı sahibkarlar arasında maarifləndirici tədbirlər görülməlidir. Ali və orta ixtisas məktəblərində baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin təcrübi biliklərinin daha da möhkəmləndirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edilməlidir.

Ali Məclisin Sədri çıxışını aqrar sahənin inkişafının vacibliyini və əhəmiyyətini qeyd edən ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır".***





Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev çıxış edərək demişdir ki, əhalini ilboyu heyvandarlıq məhsulları ilə təmin etmək sahədə qarşıda duran əsas vəzifələrdəndir. Hazırda muxtar respublikada 235 böyük heyvandarlıq, 65 quşçuluq, 102 arıçılıq, 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir. Göstərilən dövlət qayğısının nəticəsidir ki, haliyədə muxtar respublikada 3 ət, 12 süd, 1 gön-dəri emalı, 1 balıq konserv, 1 yem istehsalı müəssisəsi və 2 yem sexi fəaliyyət göstərir. Heyvandarlıqda damazlıq təsərrüfatlarının inkişafı əsas məsələlərdən biridir. 2009-2015-ci illərdə "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə muxtar respublikaya 1937 baş düyə alınıb gətirilərək lizinq yolu ilə sahibkarlara verilmişdir. Damazlıq və süni mayalama tədbirləri mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və heyvandarlıq məhsullarının intensiv artımına səbəb olmuşdur. Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın verilməsi bu sahəyə olan marağı daha da artırmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov demişdir ki, Dövlət Baytarlıq Xidmətinin və laboratoriyaların maddi-texniki bazası möhkəmləndirilmiş, müasir tələblərə cavab verən məntəqələr yaradılmışdır. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti muxtar respublikada mövcud olan 117 min başdan çox iribuynuzlu, 728 min başdan artıq xırdabuynuzlu heyvanların, 1 milyon başdan çox quşların, 70 min arı ailələrinin, o cümlədən vəhşi heyvanların yarada biləcəyi epizootoloji vəziyyəti nəzarətdə saxlayır. 2016-cı il ərzində və 2017-ci ilin müvafiq dövründə muxtar respublikada qarayara, quduzluq, dabaq, bruselyoz, vərəm, çiçək, pasterellyoz, quşlarda taun, o cümlədən arı xəstəliklərinə qarşı epizootiya əleyhinə tədbirlər aparılmışdır. Bu gün əsas məsələ qeyd olunan xəstəliklərin yarada biləcəyi bioloji, zoonotik, yoluxucu təhlükələrin aradan qaldırılmasından ibarətdir. Göstərilən yüksək dövlət dəstəyi, təsdiq olunmuş tədbirlər planı, koordinasiyalı fəaliyyət, yaradılmış kadr potensialı, maddi-texniki cəhətdən təchiz olunmuş laboratoriyalar qarşıya qoyulan məqsədə nail olmağa imkan verir. Əbil Əbilov Dövlət Baytarlıq Xidmətinin kollektivi adından göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri Dövlət Baytarlıq Xidmətinin işdə fərqlənən əməkdaşlarına xalça və saat hədiyyə etmiş, texniklərə yeni alınan 3 ədəd süni mayalandırma avadanlığı təqdim olunmuşdur.

Ali Məclisin Sədri Baytarlıq Xidməti əməkdaşları ilə söhbət zamanı demişdir: Baytarlıq təbabətinin düzgün təşkili cəmiyyətin sağlamlığına xidmət edir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada epizootik vəziyyət sabitdir. Yaz və payız aylarında təsərrüfatlarda dezinfeksiya işləri aparılır, sağlam heyvandarlıq məhsulları istehsal olunur. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə kadr hazırlığı bu sahədə varisliyi təmin edir. Muxtar respublikada baytarlıq təbabəti üzrə kadr hazırlığı bundan sonra da diqqətdə saxlanmalı, Dövlət Baytarlıq Xidmətinin əməkdaşları daim öz üzərlərində işləməli, bilik və təcrübələrini artırmalıdırlar. Həkim baytarlar mütəmadi olaraq təsərrüfatlarda olmalı, baytarlıqda elmi metodlarla yanaşı, xalq təbabətindən də geniş istifadə olunmalıdır. Rayon icra hakimiyyətləri süni mayalandırma tədbirlərinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, məhsuldarlığın artırılmasına və heyvanların saxlanma şəraitinə diqqəti artırmalıdırlar.

Ali Məclisin Sədri Baytarlıq Xidmətinin əməkdaşlarına təşəkkür etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Heç kəsə sirr deyil ki, hər bir ölkənin, məkanın xoşbəxt gələcəyini bu gün həyata keçirilən praqmatik siyasət müəyyənləşdirir. Çünki yalnız belə idarəetmə məsələlərə konstruktiv yanaşmanı təmin edərək, siyasi və iqtisadi gələcəyimizi uğurlu şəkildə modelləşdirə bilər. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında reallaşdırılan, keçmişimiz, bu günümüz və gələcəyimiz arasında bütövlük yaradan inkişaf strategiyası xüsusilə diqqəti cəlb edir. Muxtar respublikada həyata keçirilən islahatlar bu gün bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaradıb, ötən illər ərzində makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunub və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılıb. Əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. Bu gün ulu öndər Heydər Əliyevin ideyalarına sadiqlik əsasında həyata keçirilən islahatlar Naxçıvanın gələcək inkişafına təminat verir. Bu siyasətin tərkib hissəsi kimi, gələcəyimiz olan uşaqlara göstərilən böyük diqqət və qayğı həm də kadr potensialımızın müasir dövrün tələbləri səviyyəsində formalaşmasına şərait yaradır.***

*İcmal*

# Gələcəyimizə böyük qayğı, mənəvi dəyərlərimizə dərin hörmət və gündən-günə güclənən ordu

## *Ötən ayın mənzərəsini məhz belə ifadə etmək olar*



İyunun 1-də – Uşaqları Beynəlxalq Müdafiə Günündə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən festivalda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu barədə deyib: ***“Ulu öndərimizin Azərbaycan gənclərinə və uşaqlara böyük diqqət və qayğısının bəhrələri bu gün müstəqil dövlətimizdə aydın görünür. Bu diqqətin nəticəsidir ki, Azərbaycanda uşaq hüquqları etibarlı şəkildə qorunur. Uşaqların sağlam mühitdə böyümələri üçün bütün tədbirlər görülür. Dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan yeganə ölkədir ki, müharibə şəraitində olmasına baxmayaraq sosial sahəyə, ana və uşaq hüquqlarının qorunmasına diqqət göstərilir, dövlət proqramları qəbul edilir. Uşaqların istedadlarının üzə çıxarılması, biliklərinin artırılması dövlət orqanlarının həyata keçirməli olduğu əsas tədbirlər sırasındadır. Bu istiqamətdə həyata keçirilən mühüm tədbirlərdən biri də “Ölkəmizi tanıyaq” layihəsidir”.***

Bu gün respublikamızda, o cümlədən qədim diyarda reallaşdırılan dövlət uşaq siyasətinin mahiyyətini, əhəmiyyətini daha yaxşı anlamaq üçün dünyanın bəzi ölkələrində yaşayan uşaqların acınacaqlı həyat tərzinə, onların başına gətirilən faciələrə nəzər salmaq kifayətdir. Bu mənada, bugünkü mövcud sabitlik və inkişaf bizim ən böyük sərvətimiz hesab oluna bilər. Bundan gələcəyimiz olan uşaqlara da böyük pay düşür.

Bu gün muxtar respublikada uşaqların inkişafı, onların cəmiyyətin layiqli üzvü kimi yetişməsi diqqətdə saxlanılır. Ötən müddət ərzində uşaqların təhsili sahəsində mühüm işlər görülüb, şəhər, qəsəbə və kəndlərimizdə ümumtəhsil məktəbləri istifadəyə verilib, onların maddi-texniki bazası gücləndirilib. Məktəblərimizdə informasiya texnologiyalarının son nailiyyətləri olan avadanlıqlar quraşdırılıb. Bu gün muxtar respublikada məhdud fiziki imkanlı uşaqların da təhsilə cəlb olunması və reabilitasiyası diqqət mərkəzindədir. Bu məqsədlə dövlət proqramının qəbul edilməsi və uğurlu icrası uşaqlara göstərilən dövlət qayğısının ifadəsidir.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən festivalda Ali Məclis Sədrinin təhsil, idman, musiqi, rəsm və tətbiqi sənət sahələrində nailiyyətlərinə görə fərqlənən uşaqlara hədiyyələr təqdim etməsi də gələcəyimiz olan uşaqlara göstərilən diqqət və qayğının növbəti nümunəsidir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı, təbii sərvətləri, turizm potensialı, təbii şəfa ocaqları, qabaqcıl təhsil müəssisələri, regional nəqliyyat imkanları bu gün bir sıra ölkələrin diqqətini cəlb edir, onu beynəlxalq cazibə mərkəzinə çevirir. Muxtar respublikaya səfər edən nüfuzlu ölkələrin diplomatları da bu məqamları xüsusi qeyd edir, uzun illər blokada şəraitində yaşaya da, böyük inkişafa nail olan Naxçıvanda görülən işlərə heyranlıqlarını ifadə edir, muxtar respublika ilə ölkələrinin çoxşaxəli əlaqələrinin inkişafında maraqlı olduqlarını vurğulayırlar.

İyunun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Onno Kervers ilə görüşüb. Ali Məclisin Sədri Niderland Krallığının ölkəmizdəki səfirlərinin 2012-ci ildən etibarən muxtar respublikaya mütəmadi səfər etdiklərini və bunun nəticəsi olaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Niderland Krallığı arasında iqtisadi-ticarət əlaqələrinin qurulduğunu diqqətə çatdırıb. Hazırda bu əlaqələrin davam etdirildiyini bildirən Ali Məclisin Sədri kənd təsərrüfatı texnikalarının, tibbi avadanlıqların və dərman vasitələrinin alınması sahəsindəki əməkdaşlıqdan danışıb.

İyunun 14-də Ali Məclisin Sədri Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayev ilə görüşüb. Qonağı salamlayan Ali Məclisin Sədri Azərbaycan və Qazaxıstan xalqlarının eyni kökə malik olduğunu və ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan-Qazaxıstan əlaqələrinin inkişafına mühüm əhəmiyyət verdiyini xatırladan Ali Məclisin Sədri hər iki ölkə Prezidenti tərəfindən dostluq münasibətlərinin davam etdirildiyini bildirib.

Muxtar respublikamızda hərbi, iqtisadi, enerji, ərzaq, ekoloji, kiber və informasiya təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzində saxlanılır, həmin istiqamətlərdə fəaliyyət göstərən dövlət qurumları öz səylərini əsirgəmirlər. Təhlükəsizliyimizin təminində xüsusi rol oynayan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, xidmətin müvafiq strukturları üçün lazımi iş şəraiti yaradılıb. Bu sahədə görülən işlərin davamı olaraq iyunun 2-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinin inzibati binası və təlim mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri açılış mərasimində iştirak edib, açılışı bildirən lenti kəsib, şəxsi heyəti salamlayıb, Dövlət Təhlükəsizliyi Xidmətinin Xüsusi Təyinatlılar Şöbəsinə alınan yeni texniki avadanlıqlara baxıb.

Hər bir cəmiyyətdə milli və mənəvi dəyərlərin qorunması həmin cəmiyyətin inkişafı ilə mütləq şəkildə əlaqəlidir. Azərbaycan xalqı da tarixən öz milli, əxlaqi və mədəni dəyərləri ilə böyük inkişaf yolu keçib. Qədim Naxçıvan diyarı isə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tarixən milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında mühüm rol oynayıb.

İyunun 14-də keçirilən iftar mərasimində çıxış edən Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***“Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır”*** *fikrini xatırladaraq deyib:* ***“Azərbaycan xalqı əsrlərboyu zəngin dini-mənəvi dəyərlər sistemi yaratmış, bəşər mədəniyyətinə böyük töhfələr vermişdir. Ramazan ayı da milli-mənəvi həmrəyliyin və humanizmin təntənəsini nümayiş etdirən ən ali dini dəyərimizdən biridir. Müqəddəs “Qurani-Kərim”in insanlara çatdırıldığı bu ayın ən böyük fəziləti sülhə, əmin-amanlığa və savab işlərə çağırışdır”.***

Ali Məclisin Sədri müqəddəs Ramazan ayında niyyətlərin və duaların qəbul olunmasını arzulayıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi Xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, eləcə də Hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrələri açılıb.

Ordu quruculuğu, onun döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü işlər bu gün uğurla davam etdirilir. Bu gün Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin maddi-texniki təminatı və hazırlıq səviyyəsi günün tələbləri nəzərə alınaraq gücləndirilib. Yüksək döyüş hazırlığına görə dünyanın qabaqcıl ölkələrinin ordularından heç də geri qalmayan Əlahiddə Ümumqoşun Ordu doğma yurdumuzun təhlükəsizliyinin qarantına çevrilib. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 12-dən etibarən Naxçıvanda keçirilən iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri ordumuzun qüdrətini bir daha nümayiş etdirdi.

İyunun 15-də – Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan birgə əməliyyat taktiki təlimi izləyiblər.

Təlimə cəlb edilmiş birləşmə və hissələr qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirərək hədəf və maketlərin 90 faizindən çoxunu məhv edib və düşmən üzərində qələbə çalıblar.

Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil olmuş yeni silah, texniki avadanlıqlar və pilotsuz uçuş aparatlarına baxıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgər, zabit və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin başa çatması və Azərbaycan xalqının Milli Qurtuluş bayramı münasibətilə təbrik edib. Ali Məclisin Sədri deyib: ***“Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan Ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir”.***

Ali Məclisin Sədri hərbi təlimin bütün iştirakçılarını və təşkilatçılarını tapşırıqların uğurlu icrası münasibətilə təbrik edib, şəxsi heyətlərə təşəkkürünü bildirib, təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Hər bir ölkə üçün ordu quruculuğu prosesində milli hərbi kadrların hazırlanması mühüm əhəmiyyətə malik sahə kimi daim prioritet təşkil edir. Respublikamızda bu sahəyə xüsusi önəm verilir, Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli, yüksək mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Heydər Əliyev adına Hərbi Liseyin timsalında bunu daha aydın görmək mümkündür. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə lisey qısa zamanda böyük inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris şəhərciyi yaradılıb, kursantların təhsili, sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülüb. Builki məzunlar da nəzərə alınmaqla ötən dövr ərzində təhsil ocağını 2353 kursant bitirib. Hazırda onlardan 1300-dən çoxu Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir. Bu, ulu öndərimizin adını daşıyan hərbi təhsil müəssisəsinin müstəqil dövlətimizdə ordu quruculuğuna mühüm töhfəsidir.

İyunun 22-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2017-ci il buraxılışı münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Ali Məclisin Sədri Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 17-ci buraxılışı – məzun günü münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri təbrik edib.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Ali Məclisin Sədri yeməkxanada olub, kursantların qidalanması ilə maraqlanıb, valideynlərlə görüşüb.

*Reallıqdır ki, tarixdə şəxsiyyət mühüm rola malikdir. Şəxsiyyəti olmayan xalq, region heç vaxt inkişaf edə bilməz. Tarixi şəxsiyyətlərin həyatda qoyduğu iz, keçdiyi şərəfli ömür yolu gələcək nəsillər üçün nümunə, yaşadığı dövrün inkişaf salnaməsidir. Onların xoşbəxtliyi, səadəti Vətənə xidmətdədir. Bir Şumer dastanında belə insanlar barədə deyilir: “Onlar tarix yazmırlar ki, tarixdə qalsınlar. Onlar tarix yaradırlar ki, tarixi yaşatsınlar”. Naxçıvanın ötən illər ərzində yazılan və yaradılan tarixi də məhz belə işıqlı ideyalara söykənir. 2017-ci ilin iyun ayı da bu tarixdə özünün layiqli yerini alıb.*

**Rauf KƏNGƏRLİ**

# Səyyar xidmət Babək rayonunda fəaliyyətini davam etdirir

Həyatımızın bütün sahələrində muxtar respublikamızda bərqərar olunmuş dinamik sosial-iqtisadi inkişafın bəhrələrini görmək mümkündür. Region sakinlərinin layiq olduğu səviyyədə yaşamasına yönəldilmiş tədbirlərin reallaşdırılması, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində görülən işlər də həmin tədbirlərin tərkib hissəsidir və insanlar tərəfindən rəğbətlə qarşılanır. Bunun ifadəsi kimi 2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyar xidmətin fəaliyyəti hər bir naxçıvanlı tərəfindən yüksək qiymətləndirilir.

Nazirliyin əməkdaşı, polis kapitanı Seymur Tağıyevin sözlərinə görə, səyyar xidmət üçün nazirliyə “Hyundai” markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq səyyar xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib. Səyyar xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Avtomobildə quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara verilməsinə imkan yaradıb.

2015-ci il ərzində səyyar xidmətə 6320 müraciət olub. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Xidmət 2016-cı ili də uğurla başa çatdırıb. Belə ki, bəhs olunan dövrdə səyyar xidmətə 6062 müraciət edilib. Onlardan 4627-si şəxsiyyət vəsiqəsi, 1386-sı sürücülük vəsiqəsi, 5-i ümumvətəndaş pasportu, 44-ü məhkumluq arayışı almaq üçün olunan müraciətlərdir.

Səyyar xidmət 2017-ci ilin ötən 6 ayı ərzində 2 dəfə Şərur, Sədərək, Ordubad, Culfa, Babək, Şahbuz və Kəngərli rayonlarında olub. Üçüncü dəfədir ki, xidmət muxtar respublikanın rayonlarında fəaliyyətini davam etdirir. Bu dövrdə xidmətə 2676 müraciət edilib. Onlardan 1971-i şəxsiyyət vəsiqəsi, 688-i sürücülük vəsiqəsi, 16-sı məhkumluq arayışı, 1-i ümumvətəndaş pasportu almaq üçün olunan müraciətlərdir.

Səyyar xidmət dünən Babək rayonunun Payız kəndində olub.

**Muxtar MƏMMƏDOV**

# Naxçıvandan əsən yellər




*Hər dəfə Naxçıvana yolum düşəndə, hər dəfə Azərbaycanımızın bu əsrarəngiz bölgəsini qarış-qarış gəzəndə özümə söz verirəm ki, bu yerlərdən aldığım təəssüratdan fərqli bir şey yazacam. Amma Naxçıvana hər gəlişimdə o qədər heyrətlənirəm ki, gördüklərim qələmə sığmır. Çünki bu gün Naxçıvan gül-çiçək içində baş qaldırmış möhtəşəm bir qalaya bənzəyir. Və hər dəfə də Naxçıvandakı bu dəyişikliyi görəndə öz-özümə sual verirəm: Nə baş verir? İdarəetməmi dəyişir? İnsanlarmı?*

Budəfəki səfərimdə bu suallara cavab tapa bildim. Naxçıvanda, naxçıvanlılarda FİKİR İNQİLABI baş verib.Yeddidən yetmiş yeddiyə hamı bu Vətəni bütün varlığı ilə sevir – onun sahibi kimi, onun əsgəri kimi, onun fəhləsi, ziyalısı və nəhayət övladı kimi. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xətti ilə media kapitanlarının Naxçıvan səfəri zamanı bu bölgənin hər yerini gəzdik, insanlarla söhbət etdik, bizi maraqlandıran xeyli suallar verdik. Cavablar bu yavru Vətənə məhəbbət, hörmət və ehtiramla dolu. Qürur duyduq...

Və belə bir qənaətə gəldik: indi Naxçıvan kiminsə ağlından keçirə bilmədiyi gözəl bir məmləkətdir. Səliqə-sahmanlı, insanları mətin, ən kiçik çınqılı uğrunda belə, canını fəda etməyə hazır olan gəncləri və bir də Naxçıvanın bütün adət-ənənələrini yeni nəslə inadkarcasına ötürən çörək ətirli, beli əlindən düşməyən, başını torpaqdan qaldırmayan, əkən-biçən və onu dadlı-duzlu bişirən şirin qocaları. Bilmirəm mənə belə gəldi, yoxsa bütün media kapitanları bu hissi keçirdilər: Məncə, Naxçıvanın hər yerindən BƏRƏKƏT ƏTRİ gəlir. Bəli, bu gün bu bölgə, doğrudan da ALINMAZ QALADI. Sanki səkkiz yüz il bundan öncəki Naxçıvandır. Alınmaz, Fəth Olunmaz!!! İnsanlar işində, gücündə. Nə ilə seçilir Naxçıvan? Super fərqli yolları ilə, yox! Super insanları ilə, yox! Naxçıvanı fərqləndirən bir cəhət var: insanların səmimiyyəti və qaydalara ciddi riayət etmələri. Uşaqdan tutmuş böyüyə kimi bu qaydalara sevə-sevə əməl edirlər. Və ən əsası burada Azərbaycan dövlətini sevirlər, ağrılarına, acılarına hər kəs şərikdir. Anlayırlar, başa düşürlər. Kənara çəkildim, oğurlandım, yaxşı mənada. İnsanlarla təmasda olmaq istədim. Heç kəs mane olmadı. Kiminlə istəyirsən, nə qədər istəyirsən söhbət elə. Hansı qapını istəyirsən aç, qonağı ol. Səni bağırlarına basacaqlar. Evin yuxarı başına keçirəcəklər və səni bəlkə də heç zaman heç bir yerdə görmədiyin bir qonaqpərvərliklə əzizləyəcəklər. Söhbət elədiyin insanlardan Naxçıvan barədə soruşanda gözləri qəribə bir sevinclə işıldayacaq və hər sətirbaşı Azərbaycan dövləti deyəcəklər. Məncə, Naxçıvan Azərbaycanımızın digər bölgələrinə bir nümunədir. Burada bizə bölgə ilə tanışlıq üçün hər cür şərait yaratdılar: gəzin, baxın, adamlarla söhbət edin dedilər. Və oturub-durduğumuz sadə insanlar, hətta gizlincə görüşdüyüm şəhər sakinləri dedilər – nə var onu dedilər. Şikayət etmədilər, qədim insanlar kimi Şah Abbasın 38 vergi növündən danışmadılar. Nə var onu dedilər. Fəxrlə danışdılar, qürurla danışdılar, sevgi ilə danışdılar.

Bu səfər boyu bir qənaət məni tərk etmədi: müvəqqəti olaraq Bakıdan məsafəcə ayrı düşmüş Naxçıvan nümunədir.



*Niyə?*

Burada DÖVLƏTÇİLİYİ QORUMAQ var. Burada insanlara FƏRQLİ YANAŞMA qaydası var. Burada DİRİLİŞ var və burada bütöv Azərbaycana sevgi var. Burada mənə elə gəlir ki, insanlar sanki öz talelərini yaşamırlar, altı minillik tarixlərini yaşayırlar və nəsillərə ötürürlər. Səbəb nədir? Dövlətinə, millətinə bağlılıq. Kaş bu bağlılıq Azərbaycanımın hər guşəsində olaydı. Naxçıvanda olanda mən Azərbaycanın hər bir yerində belə bir yurd istədim. Düzdür, bölgələrimizin inkişafını, bu bölgələrə rəhbərlik edən insanların əməyini qətiyyən kölgədə saxlamaq olmaz. O bölgələrdə yaşayan insanların zəhmətini qiymətləndirməmək günahdır. Amma Naxçıvan... Etiraf edək ki, Naxçıvan bir başqa aləm...

Gəzdik, gördük, Vətənimizin parçasını hiss etdik. Naxçıvanı qəlbimizə, könlümüzə həkk etdik. Hər yerdə səliqə-sahman gördük. Hər yerdə daşıdığı vəzifəyə məsuliyyət gördük. Kiçikliyindən-böyüklüyündən asılı olmayaraq.

Burda yaşamağa nə var ki? Yollar tərtəmiz. Şərurdan tutmuş ta Ordubada qədər yollar nə gözəl! Hər kəs yerindədir. Hər kəs işini bilir.

Arpaçayda, Batabatda olduq. İnsanların xoş rəftarına, sakit təbiətlərinə heyran qaldıq. Və bir şeyə daha çox təsirləndik. İnsan dövlətini, yaşadığı bölgəni nə qədər sevərmiş! Yox, onlar bunu sözdə demirlər, ağızdolusu danışmırlar, bu onların üzündə yazılıb, bu onların gözlərindən oxunur. Və burada, bu qədim bölgədə bir daha əmin olduq ki, Naxçıvan bir bölgə kimi alınmaz qaladır; sözü ilə, sirri ilə, adamları ilə...

Burda külək də başqa cür əsir – məhəbbət dolu... Burda çaylar da başqa cür axır – sevgi dolu. Və hər yerdə rəhbərlik qayğısı. Məncə, Naxçıvan indi əsl turizm məkanıdı. Qoy gəlsinlər, görsünlər və heyran olsunlar.

***Bakıdan uzaq olsa da, Bakıya ən yaxındır Naxçıvan***

Nuh Peyğəmbərin, Möminə xatının qəbirlərini ziyarət etdik. Məşhur Duz dağında olduq... Ordubad və Şərur, Sədərək isə tam başqa bir aləm. Sədərəkdə 130 metrlik məsafədə erməni snayperlərinin səni izləməyi başqa bir hiss. Orada yaşananları, insanların hər an, hər saniyə təhlükə ilə üz-üzə dayanmalarını sözlə təsvir etmək mümkün deyil. Amma təsəvvür edin, hər an güllə, döyüş hiss edən bir rayon, elə bil Avropanın mərkəzindəsən. Azərbaycanın heç bir rayonundan geri qalmayan Sədərək, bəlkə də, irəlidə gedən Sədərək.



* * *

Naxçıvandan qəribə hisslərlə ayrıldıq. Burada sanki bir baladan ayrılırdıq. Bir atadan, bir anadan ayrılırdıq. Amma arxayın ayrılırdıq. Çünki bu ALINMAZ QALA – tarixin Naxçıvan qalası əmin əllərdədir, mərd əllərdədir. Vətəni sevən insanların, rəhbərliyin əllərindədir. Çünki Azərbaycan dövlətinin nəzəri, qayğısı bu yavru Vətənin üstündədir.

...Naxçıvan-Bakı təyyarəsinə minəndə başımı qaldırıb onun aylı-ulduzlu göylərinə baxdım. Azərbaycanımın hər yerində belə bir Vətən istədim.

**Yunis OĞUZ**
***“Olaylar” qəzetinin baş redaktoru***

## Pakistan mətbuatı: Naxçıvan Azərbaycanın İslam dünyası ilə mədəni bağların qurulmasında özünəməxsus əhəmiyyətə malikdir

***Pakistanın dailyparliamenttimes.com portalı, “Parliament Times” qəzeti və internet versiyasında ingilis dilində “Naxçıvan – İslam mədəniyyətinin paytaxtı 2018” adlı məqalə dərc olunub.***

Məqalədə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin toplantısında Azərbaycanın Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçildiyi bildirilir, Naxçıvan Muxtar Respublikasının tarixi keçmişinə, iqtisadi nailiyyətlərinə və turizm potensialına geniş yer verilir.

Məqalədə Azərbaycanın tərkib hissəsi olan muxtar respublikanın özünün Konstitusiyası, Ali Məclisi, Nazirlər Kabineti və Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 deputatın seçilməsi və Ali Məclis Sədrinin muxtar respublikanın yüksək vəzifəli şəxsi olması haqqında məlumat verilir. Qeyd olunur ki, bu diyarda 5 minillik tarixə malik şəhər mədəniyyəti mövcuddur. Naxçıvan Şərq sivilizasiyasının beşiyi olmaqla yanaşı, dünyanın ticarət, sənətkarlıq, elm və mədəni mərkəzlərindən biri hesab edilir.

Naxçıvan Muxtar Respublikasının tarixinə yer verən müəllif Naxçıvanın vaxtilə əsası Şəmsəddin Eldəniz tərəfindən qoyulmuş Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu, bu dövrdə də Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi dünyada şöhrət qazandığı qeyd olunur. Məqalədə 1918-ci il may ayının 28-də Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra təcavüzkar Ermənistanın Naxçıvanı ilhaq etmək siyasəti yeritməyə və dinc azərbaycanlı əhaliyə qarşı qətliamlar həyata keçirməyə başladığı, lakin Naxçıvan əhalisinin bu bölgənin Azərbaycanın tərkibində qalması üçün böyük əzm göstərdiyi vurğulanır. 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsi və həmin il oktyabrın 13-də imzalanmış Qars müqaviləsinin Naxçıvanın gələcək taleyinin həll edilməsində əhəmiyyətli rol oynadığı, nəticədə, Naxçıvan Muxtar Diyarının əsasında 1924-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının təsis edildiyi diqqətə çatdırılır.

Hazırda üç tərəfdən işğalçı Ermənistan ərazisi ilə əhatə olunmuş muxtar respublika ərazisinin blokada vəziyyətində olduğu, lakin blokadanın ağır şərtlərinə baxmayaraq, muxtar respublikada əhəmiyyətli inkişafın nəzərə çarpdığı, iqtisadi irəliləyişin səviyyəsinə görə muxtar respublikanın Azərbaycanın digər bölgələri arasında ilk yerdə olduğu diqqətə çatdırılır. Yeni istehsal sahələrinin sayının artması və müəssisələrin genişləndirilməsi nəticəsində muxtar respublikada təxminən 400 adda yerli məhsulun istehsal olunduğu bildirilir.

Naxçıvanın turizm potensialına geniş yer verən müəllif Naxçıvanın özünün arxeoloji abidələri və İslam memarlıq əsərləri ilə məşhur olduğu, burada bir çox qədim məktəblərə, tarixi məscidlərə, saraylara, məqbərələrə, sənətkarlıq və folklor nümunələrinə, muzeylərə rast gəlindiyi, həmçinin çoxlu sayda müasir memarlıq abidələrinin də mövcudluğu qeyd edir. Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral bulaq, 400-ə yaxın böyük və kiçik çayların olduğunu, bölgədə turizmin mövcud yerli infrastruktur, mədəni irs, tarixi və təbii abidələr əsasında qurulduğu, hətta ərazinin relyefi və iqlim şəraitinin də nəzərə alındığı, xammala ehtiyac olmadan və ətraf mühitə heç bir zərər vurmadan həyata keçirildiyi, bu baxımdan Naxçıvanın çox zəngin turizm potensialına malik olduğu bildirilir.

Muxtar respublika ərazisindəki 1162 tarixi-mədəni abidədən 58-nin dünya, 455-nin ölkə, 649-nun isə yerli əhəmiyyətə malik olduğu Naxçıvanın özünün dini ibadət yerlərinə görə də məşhurluğu ilə seçildiyi, bunlardan “Qurani-Kərim”in “Kəhf” surəsində xatırlanan Əshabi-Kəhf mağarasının önəmli yerlərdən birini təşkil etdiyi diqqətə çatdırılır. Bu dini-mədəni abidə kompleksini ziyarət etmək istəyənlər üçün hər cür şəraitin yaradıldığı, hər il on minlərlə insanın buranı və eyni zamanda Naxçıvanın cənubunda yerləşən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin ərazisində yerləşən Nuh Peyğəmbərin türbəsini də ziyarət etdiyi qeyd olunur. Muzeylər diyarı kimi də adlandırılan Naxçıvan Muxtar Respublikasında həmçinin kitabxanaların sayının da 235-ə çatdığı bildirilir. Dünyada mövcud olan 11 iqlim zonasından 7-nə muxtar respublikada rast gəlindiyi, bölgənin zəngin bitki və heyvanat aləminin, coğrafi mövqeyinin təamlı Naxçıvan mətbəxinə təsir edən əsas amillərdən olduğu bildirilir. Təbii resurslarla zəngin olan Naxçıvan Muxtar Respublikası eyni zamanda təbii müalicə obyektləri ilə də məşhur olduğu, bronxial-astma, xroniki bronxit, astma komponenti mövcud olan xroniki bronxit allergiyası, astmaöncəsi xəstəliklərin buradakı Duzdağ Fizioterapiya Mərkəzində tam müalicə edildiyi, Naxçıvandakı “Darıdağ” adlandırılan termal suların isə dəri xəstəliklərinin müalicəsi üçün çox effektiv olduğu, həzm sistemi xəstəlikləri isə Naxçıvanın məşhur “Badamlı”, “Sirab” mineral suları vasitəsilə müalicə edildiyi qeyd olunur.

Məqalədə həmçinin 2017-ci ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “İslam Həmrəyliyi ili” elan olunduğu, 54 müsəlman ölkəsini təmsil edən idmançıların iştirakı ilə 4-cü İslam Həmrəyliyi Oyunlarının Bakıda uğurla keçirildiyi ifadə edilərək, Azərbaycanın əhəmiyyətli mədəni, tarixi və siyasi mərkəzlərindən biri kimi Naxçıvanın ölkənin bütün sahələrində önəmli rol oynamaqla yanaşı, eyni zamanda Azərbaycanın İslam dünyası ilə mədəni bağlarının qurulmasında özünəməxsus əhəmiyyətə malik olduğu bildirilir. Üzümüzə gələn 2018-ci ildə də Naxçıvanın İslam mədəniyyətinin paytaxtı kimi İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcəyi diqqətə çatdırılır.

**AZƏRTAC**

## Növbəti imtahanlar keçirilib

***Beşinci ixtisas qrupu üzrə ali məktəblərə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə əvvəlki ilin məzunları üçün qəbul imtahanı, ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanının 2-ci mərhələsi və eksternat qaydasında buraxılış imtahanı keçirilib.***

İmtahanlar 9 şəhər və rayonda – Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Lənkəran, Xaçmaz, Göyçay və Şirvanda 52 imtahan mərkəzində təşkil olunub və ümumilikdə, 26 min 709 abituriyentin öz bilik səviyyəsini təsdiqləmək üçün şərait yaradılıb.

Bu imtahanlarda ali təhsil müəssisələrinin V ixtisas qrupuna (xüsusi qabiliyyət tələb edən ixtisaslara) və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) sənəd vermiş 17 min 928 nəfər əvvəlki illərin məzunları, ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) sənəd vermiş 4886 nəfər əvvəlki illərin məzunları, eksternat qaydasında attestasiyada istirak etmək üçün qeydiyyatdan keçmiş və üzrlü səbəbdən buraxılış imtahanlarında iştirak edə bilməyən cari ilin məzunu olan 914 nəfər IX sinif, 2981 nəfər isə XI sinif şagirdi iştirak edib.

İmtahanların idarə olunması üçün 188 imtahan rəhbəri, 2182 nəzarətçi-müəllim ayrılıb.

İmtahanlarda iştirak edən şagirdlər imtahana buraxılış vərəqəsini internet vasitəsilə iyunun 30-dan etibarən əldə ediblər. Buraxılış vərəqəsi ilə yanaşı, onlara “Yaddaş kitabçası”ndan çıxarış da təqdim olunub. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılıb.

Naxçıvan şəhərində bu imtahanlar 1, 7 və 14 nömrəli tam orta məktəblərdə, ümumilikdə, 79 zalda keçirilib. İmtahanlarda 1785 nəfər iştirak edib. İmtahanlara 164 nəzarətçi, 12 rəhbər, 3 ümumi rəhbər və 12 mühafizə işçisi cəlb olunub.

Nəticələr yaxın günlərdə Dövlət İmtahan Mərkəzinin saytında yerləşdiriləcək.

**Fatma BABAYEVA**

## Təbiətsevərlər üçün ideal məkan və ya

# “Qanlıgöl əfsanəsi”



*Təbiətin qoynuna üz tuturuq. Abad, rahat yollar, geridə qoyduğumuz füsunkar kənd mənzərələri bizi özünə məftun edir. Maraqlı söhbət uzun yola körpü saldığı kimi, insanın ruhuna qida verən ana təbiətin doyumsuz gözəllikləri də yolun uzaqlığını hiss etdirmir. Təbiət gözəli Qanlıgölə tələsirik. Nəhayət, Naxçıvanın dilbər guşəsi olan Şahbuz rayonunun Kükü kəndinə yetişirik. 2013-cü ildə Naxçıvan-Batabat magistralı, Ayrınc-Qızıl Qışlaq-Kükü avtomobil yolunun yenidən qurulması əlverişli iqlim şəraitinə, zəngin təbii bitki örtüyünə və təmiz dağ havasına malik olan Kükü kəndinin turizm imkanlarını xeyli artırıb. Qızmar yay günlərində istirahət üçün ideal məkan kimi bu kəndi seçənlər az deyil.*

Sərhəd kəndi olan Küküdən sonra yaşayış məntəqəsi yoxdur. Birbaşa dolanbac yollarla dağlara qalxırıq. Arabir dayanır, zövq aldığımız təbiət mənzərələrindən kadrlar çəkirik. Gözoxşayan yamyaşıl yamaclar diqqəti cəlb edir. Sanki yerə yaşıl xalı sərilib. Əzəmətli dağlar – Sarı qaya, Qaya dibi, Qırmızı qaya, Səfər bəy səngəri və bu dağların zirvəsinə sığınan ağ buludlar. İlahi, təbiət bizə nələri bəxş etməyib? Sanki Uca Tanrı bu yerləri ancaq tamaşa üçün yaradıb. Adam ayağını belə, yerə qoymaq istəmir. Qeyri-ixtiyari olaraq istəmirsən ki, bu gözəlliklərə xələl gələ. İnsan təbiətlə vəhdətdə mənən böyüyür, rahatlıq tapır, ruhən qidalanır. Axı biz təbiətin bir parçasıyıq. Təbiətə təmas bizim mənəviyyatımızı təzələyir. Başımızın üstündə açıq səma, üzərində dayandığımızsa müqəddəs torpaq. Ana torpağa nə qədər sıx tellərlə bağlı olduğumuzu bu zaman daha yaxşı dərk edirik.

Yol bizi darıxdırmır əsla. Amma haqqında əfsanələr qoşulan Qanlıgölə də çatmağa tələsirik. Yüksəkliyə qalxdıqca təbiət sanki bütün cazibəsini bizə nümayiş etdirir. Bir tərəfdə yamyaşıl çəmənlərdən boylanan sarı çiçəklər, digər tərəfdə quşların bir-birinə qarışan nəğməsi. Bu gözəlliklərin sehri ilə daxil oluruq Qanlıgölə.

Möhtəşəm mənzərini seyr edərkən bizdə sual yaranır: nə üçün belə gözəl bir gölə “Qanlıgöl” deyirlər? Əfsanəyə görə, keçmiş zamanda bu ərazilər düzənlik və hava şəraiti əkin üçün əlverişli olduğundan adamlar bir araya toplaşaraq şum edirmişlər. Bu zaman torpağın altından çıxan su burada çalışanları ağuşuna almış, bir neçəsi suya qərq olmuşdur. O zamandan bəri bu göl “Qanlıgöl” adlandırılıb. Bu gölə hər hansı bir çay tökülmür. Göl tamamilə ətrafda çağlayan bulaq suları ilə qidalanır. Buna görə gölün suyu olduqca soyuqdur. Baxdıqca düşünürsən ki, belə gözəlliyə malik olan göl, yəqin ki, ancaq tamaşa etmək üçün yaranıb.

Qanlıgöl dəniz səviyyəsindən 2420 metr yüksəklikdə, Keçəldağın ətəyində yerləşir. Eyniadlı təbii gölün əsasında su anbarı yaradılıb. Kənd adamları bu dağların yamacındakı əkin sahələrini bu gölün suyu ilə suvarırlar. Qanlıgölün qarşısında XVI əsrdən başlayaraq bir neçə dəfə bənd tikilmiş, ancaq möhkəm olmadığı üçün yazda qar-yağış sularından yaranan sellərə davam gətirməyərək dağılmışdır. XIX əsrin ortalarında burada bənd tikilmişdir. İrihəcmli dağ daşlarından inşa edilmiş bəndin uzunluğu 45 metrdir.

Yerli sakinlərin sözlərinə görə, Qanlıgölün ən mənzərəli çağı sentyabrın ilk ongünlüyüdür. Çünki bu zaman gölün içindəki bulaqlar suyun çəkilməsi nəticəsində ortaya çıxır. Bunun nəticəsində ideal mənzərə yaranır. Qanlıgölü qidalandıran bulaqların içində ən məşhuru Pünhan bulaqdır. Göz yaşı kimi dumduru, buz kimi soyuq bulaq özünü dağların qoynunda pünhan saxlamağa çalışsa da, obyektivimizdən yayına bilmir. Ana təbiət öz səxavətini bu yerlərdən əsirgəməyibsə, biz nədən bu gözəllikləri pünhan saxlayaq?

Bəli, Tanrı səxavətini ana təbiətdən əsirgəmədiyi kimi, ana təbiət də öz səxavətini insanlardan əsirgəmir. Burada təbiət sanki açıq əczaxanadır. Gölün ətrafındakı dağlardan insanlar şəfalı bitkilər – çobanyastığı, dihcə, baldırğan, kəklikotu, yarpız, solmazçiçək, səhləb yığır, faydasından yararlanırlar. Bu yerlərin saf havası ilə nəfəs aldıqca cürbəcür otların, çiçəklərin ətri hiss olunur. Buradan həm də yaylaq ab-havası duyulmağa başlayır. Qanlıgöl yaylağında illərdir ki, Kükü kəndi ilə yanaşı, ətraf kəndlərdən, həmçinin Kəngərli rayonunun Xok, Şərur rayonunun Mahmudkəndindən təsərrüfat sahibləri gəlib yurd salar, mal-qara, qoyun-quzu saxlayırlar.

Qanlıgölə səyahətimiz burada sona çatır. Buraların təbiəti o qədər al-əlvandır ki, vəsf etməklə bitməz. Gedib görmək lazımdır. Təbiət vurğunu olan Xalq şairimiz Səməd Vurğunun dediyi kimi:

*Yenə də yamyaşıl geyinib dağlar,*<br>
*Buz kimi durulub qaynar bulaqlar.*<br>
*Əriyir güneylər döşündəki qar,*<br>
*Yağış da isladır o gül çəməni,*<br>
*Təbiət ilhama çağırır məni.*

**Ruhiyyə RƏSULOVA**<br>
***Naxçıvan televiziyasının baş redaktoru***

## Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin iyun ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 229905 | 27894 | 28007 | 100,4 |
| 2. | Culfa rayonu | 370972 | 45897 | 46072 | 100,4 |
| 3. | Ordubad rayonu | 424870 | 48903 | 49000 | 100,2 |
| 4. | Şərur rayonu | 777200 | 88710 | 88870 | 100,2 |
| 5. | Babək rayonu | 733688 | 93608 | 93690 | 100,1 |
| 6. | Sədərək rayonu | 83336 | 9306 | 9313 | 100,1 |
| 7. | Kəngərli rayonu | 196093 | 25047 | 25057 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 932935 | 112685 | 112711 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4332142 | 866273 | 858053 | 99,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **8081141** | **1318323** | **1310773** | **99,4** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1242 | 88,2 | 88,5 | 100,3 |
| 2. | Şahbuz rayonu | 415 | 29,5 | 29,6 | 100,3 |
| 3. | Kəngərli rayonu | 803 | 57,0 | 57,1 | 100,2 |
| 4. | Culfa rayonu | 885 | 62,8 | 62,9 | 100,2 |
| 5. | Babək rayonu | 2155 | 153,0 | 153,1 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5975 | 430,2 | 430,2 | 100,0 |
| 7. | Şərur rayonu | 1923 | 136,5 | 136,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 222 | 15,8 | 15,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 25024 | 2252,2 | 2252,2 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38644** | **3225,2** | **3225,9** | **100,0** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 644 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 225 min 200 manat olmuş, cəmi 3 milyon 225 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Çağırışçı gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



***“Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 may tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

İyulun 5-də keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni oxunub, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Naxçıvan Şəhər Təşkilatının sədri Firudin Süleymanov və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək hərbi xidmətə yola salınanlara uğurlar arzulayıblar.

Valideyn Qiyami Qədimov çağırışçı gənclərə xoş arzularını çatdırıb. Çağırışçılar adından çıxış edən Əli İbrahimbəyli Vətənə xidmət etməyin onlar üçün ən ali borc olduğunu bildirib, bu borcu şərəflə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxışında qeyd edib ki, orduda xidmət etmək Vətənə xidmətdir. Xalq-ordu birliyi imkan verir ki, biz müstəqilliyimizi daha inamla qoruyaq.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev çıxış edərək bildirib ki, Azərbaycan dövləti inkişaf etdikcə, qüdrətləndikcə ordumuz da güclənir. Bu gün yüksək döyüş hazırlığına malik olan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu hesab edilir. Ötən ilin aprel döyüşlərində ordumuz bunu təkcə düşmənimiz olan işğalçı Ermənistan ordusuna deyil, bütün dünyaya nümayiş etdirdi.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

✍ **Səbuhi HƏSƏNOV**

## Tələbələr *“Yay məktəbi”*ndə iştirak ediblər

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində təşkil edilən “Yay məktəbi” davam edir. Məktəbin budəfəki qonaqları Naxçıvan Müəllimlər İnstitutunun tələbələri olub.*

İyulun 3-də institutun tələbələri Ağbulaq İstirahət Mərkəzinə yola düşüblər. Əvvəlcə İstirahət Mərkəzi ilə tanış olan gənclər onlar üçün ayrılmış otaqlarda yerləşdiriliblər. İlk gün tələbələr arasında stolüstü idman oyunları, “Nuh yurdu” intellektual oyunu keçirilib.

İkinci gün gənclər arasında müxtəlif idman oyunları olub, onların Ağbulaq kəndi ərazisinə gəzintisi təşkil edilib. Daha sonra tələbələr vətənpərvərlik mövzusunda filmə baxıblar. Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən konsert proqramı təşkil edilib. Axşam vaxtı isə iştirakçılar müxtəlif idman oyunlarına qatılıblar.

“Yay məktəbi”nin üçüncü günü tələbələrin Şahbuz Dövlət Təbiət Qoruğuna gəzintisi təşkil olunub. “Yay məktəbi”ndə fəal iştirak edən gənclər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin fəxri fərmanları ilə təltif ediliblər.

Məlumat üçün bildirək ki, “Yay məktəbi” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, muxtar respublika Gənclər və İdman Nazirliyi, Naxçıvan Müəllimlər İnstitutu, muxtar respublikanın Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının iştirakı ilə reallaşıb. “Yay məktəbi”ndə Naxçıvan Müəllimlər İnstitutunda təhsil alan 60 tələbə iştirak edib.

✍ **Nail ƏSGƏROV**

***İtmişdir***

Naxçıvan şəhəri, B.Abbasov küçəsi, 7/9 ünvanında yaşamış Rəhimov Rəhim Novruzəli oğlunun adına olan 2722 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 542**